

# Gözəlliyi yaşadan İNSANLAR

*Yəqin ki, muzeylərə yolunuz düşüb?! Əgər düşübsə, demək, müxtəlif əsrlərə məxsus eksponatların önündə donub qaldığınız, baxdığınız əsərlərin gözəlliyindən vəcdə gəldiyiniz vaxtlar da az olmayıb. Ancaq bir an belə düşünübsünüzmü ki, əsrlərin sərt sınağından bu əsərlər dövrümüzə necə gəlib çıxıb?*

***Etiraf edirik ki, bu haqda əvvəllər biz də düşünməmişdik. Amma indi hansı muzeyə ayaq basır, hansı eksponat önündə dayanırıqsa ikili hiss keçiririk. İlk növbədə bu gözəlliyi yaradan, xalçanı toxuyan, rəsmi çəkən sənətkara "əhsən!" söyləyirik. Bunun ardınca ürəyimizdən bir sual keçir: "Görəsən bu əsərlərə də bərpa mərkəzi ikinci həyat bağışlayıbmı?!"***

Bəli, fikrimizdəki bu dönüş Mədəniyyət və Turizm Nazirliyinin muzey sərvətləri və əmanətləri elmi bərpa mərkəzi ilə tanışlıqdan başladı.

Əvvəlcə müəssisənin rəhbəri ilə tanış olduq. Zərifə xanım Məlikova özü haqqında aşağıdakıları bildirdi:

Bakıda qulluqçu ailəsində anadan olmuşam. Atam 30 il S.M.Kirov adına Mərkəzi mədəniyyət və istirahət parkının direktoru vəzifəsində çalışıb. İşinə çox bağlı adam idi. Ondan əvvəl isə Nizami adına parkın direktoru olmuşdu. Bu vəzifəyə təyin olunanda 16 yaşı varmış. Özünə, adamlara və işinə çox məsuliyyətlə yanaşardı. Bu cəhətlərinə görə onu həm də özümə nümunə bilmişəm. Eyni keyfiyyətləri özümdə yaşatdığım üçün ilk növbədə o kişiyə borcluyam.

63 saylı məktəbi bitirmişəm. İncəsənət institutunun məzunuyam. Bir müddət Respublika (H.Əliyev adına) Sarayında çalışmışam. 1974-cü ildə ailə həyatı qurdum və pedaqoji fəaliyyətə başladım. Məişət Kondisionerləri zavodunun həmkarlar təşkilatının katibi oldum. 1980-cı ildə C.Cabbarlı adına Dövlət teatr muzeyində kiçik elmi işçi kimi çalışmağa başladım. Nəhayət, 2000-ci ilin əvvəlindən bərpa mərkəzinin rəhbəri təyin olundum.

Mən ixtisasca bərpaçı deyil, sənətşünas olsam da işimi çox sevir, bütün imkan və bacarığımdan maksimum istifadə edirəm. Mən eksponata adi əşya kimi deyil, canlı varlıq kimi baxıram. Yadıma bir əhvalat düşdü. O vaxt teatr muzeyində çalışırdım. Professor Şəmsi Bədəlbəylinin arxivini gətirmişdilər. Bu qiymətli sənədlər arasında 1936-cı ildə Mikayıl Müşfiq tərəfindən yazılmış və Şəmsi müəllimə hədiyyə edilmiş bir şer də vardı. Bircə görəydiniz ki, əlyazmanı götürəndə əllərim həyəcandan necə əsirdi. Axı Müşfiqin əlyazmaları çox az idi. Mən Əlyazmalar fonduna getdim ki, bunun Müşfiqin xətti olduğuna bir daha əmin olaq. Ancaq orada şairin heç bir əlyazmasına rast gəlmədik. Məsləhət bildilər ki, şeri Müşfiqlə bir yerdə düstaqxanada yatan Gülhüseyn Hüseynoğluna göstərək. Gülhüseyn müəllim sənədin Müşfiqə məxsus olduğunu təsdiq edəndə sanki bütün dünyanı mənə bağışladılar.

Sənədlərə qayğı və məhəbbətlə yanaşmaq duyğusu məndə o vaxtdan yaranıb...

Sirr deyil ki, eksponat nə qədər qədimi olarsa xalqın tarixinin şahidi kimi gələcək nəsillər üçün bir o qədər nadir və dəyərli olar. Lakin başqa bir qanunauyğunluq da mövcuddur: ən qədim eskponatın, əgər belə demək mümkündürsə, "keyfiyyəti" də aşağıdır. Odur ki, bərpaçıların qarşısında çətin bir vəzifə durur. İmkan daxilində bu nadir əşyaların ilkin görkəmini özünə qaytarmaq, onların ömrünü uzatmaq, əcdadlarımızın qədim dövrlərdə necə yaşadıqlarını gələcək nəsillərə göstərmək, qədim auranın ilkin gözəlliyini və təkrarolunmaz füsunkarlığını hiss etmək. Axı məhz bu eksponatlar əcdadlarımızın məişəti, düşüncə tərzi, estetik zövqü, yaradıcılıq qabiliyyətləri və vərdişləri barədə bizə məlumat verir...

1973-cü ildən mərkəzimiz Şirvanşahlar sarayının yaxınlığındakı "Bəylər" məscidinin binasında yerləşir. Mərkəzə daxil olan hər bir eksponat dəqiq pasportlaşmadan əlavə təmizləmə və məcburi dezinfeksiyaya məruz qalır. Kağız, daş və mərmər daxil olmaqla bakteriyalar, göbələklər və müxtəlif ziyanvericilər tərəfindən zədələnmiş bütün eksponatların "düşmən"i var. Burada onlarla mübarizə aparmağı yaxşı öyrəniblər. Bəzən nadir xalça, qədim mebel əşyaları və ya çırağı qoruyub saxlamaq üçün aylar və illər tələb olunur. Repressiya dəzgahı arxasında əyləşən, detalları səbrlə seçən, naxışların aralarını bir-bir bərpa edən, çətinliklə seçilmiş tərkiblərlə qiymətli zaritetlərin qırıntılarını böyük məhəbbətlə yapışdıran mərkəzin əməkdaşları bərpa etdikləri eksponatları az qala ərə gedən gəlin kimi yola salırlar. Əməkdaşlarımız respublikanın bütün muzeylərini öz himayələri altına almışlar. Burada görülən hər bir işin elmi əsasları var. Bədii şuranın üzvləri hansı əşyanın öz əvvəlki şəklində bərpa edilməsini, hansı əşyanın qədim mədəniyyət nümunəsi kimi mühafizə olunmasını və s. müəyyən edir. Hər dəfə köhnə rəsm əsərlərini, afişaları, qəzetləri, məşhur insanların paltarlarını, ölkənin müxtəlif bölgələrindən gətirilmiş bəzək əşyalarını, əl işlərini, nadir kəşkülü (dərviş çantası və ya cənamazı), kürkünü (arxalıq), daraqqabını, tənbəki kisələrini, möhürqabını və XII-XIII əsrlərə aid çırağı həyata qaytarmağa müvəffəq olanda işçilərimiz fərəh və qürur hissi keçirirlər. Başqa cür ola da bilməz. Axı bu, vətən naminə, həmvətənlərimizin şüurunun artırılması naminə sərf edilən məsuliyyətli əməkdir. Sonda onların adlarını xüsusi razılıq və məmnunluq hissilə çəkmək istərdim: Natiq Səfərov, Ziyafət Əliyeva, Sima Quliyeva, Bəsti Əliyeva, Almas Məmmədova, Ziba Əliyeva, Ülviyyə Şirinova,Ruhəngiz Əliyeva və başqaları. Onların səyi ilə 2005-2006-cı ildə 300-ə yaxın eksponat bərpa edilərək sahiblərinə qaytarılmışdır.

***Qazandığımız bütün uğurlar onların adı ilə bağlıdır. Odur ki, ən çətin məqamlarda belə sayı 40-a çatan əməkdaşlarımıza, o cümlədən, 24 bərpaçımıza arxalanıb qərar qəbul edirəm...***

**Səbinə MƏMMƏDOVA**